İran İslam Resublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

# Şəhid Sərdar Süleymani

# Beynəlxalq Terrorizmlə

# Mübarizənin Qəhrəmanı




**İran İslam İnqilabının Ali Rəhbəri Ayətullahul-Üzma Seyid Əli Xamenei şəhid general Hacı Qasim Süleymani barəsində deyib:**

Şəhid Süleymani beynəlxalq müqavimətin çöhrəsidir və bütün müqavimət tərəfdarları onun yolunun davamçılarıdır!

Allahın adı ilə

# Şəhid Sərdar Süleymani - Beynəlxalq Terrorizmlə Mübarizənin Qəhrəmanı

3 yanvar 2023-cü il tarixi İran İslam İnqilabı Keşikçiləri Korpusunun Qüds Qüvvələrinin komandanı General Hacı Qasım Süleymaninin, İraqın Həşdi Şabi komandirinin müavini Əbu Mehdi əl-Mühəndisin və onların digər yüksək rütbəli yoldaşlarının namərdcəsinə şəhadətə yetirilməsinin üçüncü ildönümünə təsadüf edir.

General Qasim Süleymani və onunla birlikdə olan yoldaşları 2020-ci il yanvarın 3-də səhər saatlarında Bağdad Beynəlxalq Hava Limanından çıxan kimi Amerika pilotsuz təyyarələrinin hücumuna məruz qalaraq şəhid oldular.

Amerikanın şəhid general Qasim Süleymani və yoldaşlarına qarşı törətdiyi terror aktı beynəlxalq hüququn və insan haqlarının pozulması olmaqla yanaşı, həm də İraq hökumətinin suverenliyinə qarşı təcavüz aktıdır. Amerika hökumətinin bu cinayət əməli rəsmi, qeyri-rəsmi və ictimai səviyyədə geniş reaksiya və qınama ilə nəticələnib. Məsələn, Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Şurasının xüsusi məruzəçisi öz hesabatında ABŞ-ın general Süleymani və onun yoldaşlarına hücum hərəkətini açıq şəkildə qeyri-qanuni elan edib.

General Qasim Süleymani “terrorizmlə mübarizənin qəhrəmanı” idi və onun regional səviyyədə parlaq karyerasının böyük bir hissəsi beynəlxalq terrorizmlə

mübarizə sahəsində olub. Beynəlxalq terrorizmlə mübarizədə ön sıralarda olan şəxsə qarşı törədilən terror aktı “ikili standartlar”dan istifadənin bariz və əməli nümunəsidir və terrorla mübarizə apardığını iddia edənlərin yalanlarına dəlalət edir.

General Qasim Süleymaninin şəxsi və insani cəhətləri baxımından üstün xüsusiyyətləri, hərbi komandanlıq və idarəetmə imkanları, strateji sahədə qeyri-adi dühası və regionda sülhün bərqərar olunmasındakı rolu onu dünyanın ən görkəmli şəxslərindən və tanınmış hərbi komandirinlər birinə çevirdi. Bununla belə, bu görkəmli şəxsiyyətin bir çox fərqləndirici xüsusiyyətlərinə baxmayaraq, Süleymaninin bəlkə də ən böyük xüsusiyyəti onun məzlumlara qarşı davamlı və təsirli dəstək verməsi, ABŞ-ın rəhbərlik etdiyi dünya hökmranlıq sisteminə qarşı durması və sionist rejimə qarşı çıxmasıdır.

General Qasim Süleymani həqiqi İslam təlimləri və dəyərlərinə əməli bağlılıqla, məzlumları zalımlara qarşı müdafiə edib, Amerika hakimiyyətinə və sionist rejimin işğalına qarşı müqavimət hərəkatlarını onun ən mühüm vəzifəsi kimi dəstəkləyib və bu yolda onun üçün milliyyət, cinsiyyət, etnik mənsubiyyət, din və məzhəb önəmli deyildi. Süleymaninin irqindən və dinindən asılı olmayaraq insanların ləyaqətini qorumaq səyi beynəlxalq humanitar hüququn əməli şəkildə tətbiqi nümunəsidir. Bu sahədə çoxlu yazılı və sənədləşdirilmiş bəyanatlar və sübutlar mövcuddur. General Qasim Süleymaninin təkfirçi qrupların cinayətlərinə qarşı İraq və Suriyadakı dini və irqi azlıqların (yezidilər və xristianlar da daxil olmaqla) dəstəklənməsindəki rolu, Süleymaninin zalımlara qarşı məzlumları dəstəkləmək əxlaqı və praktikasının görkəmli nümunələrindən biridir. Süleymani həm dost, həm də düşmənin fikrincə, İŞİD və təkfirçi qruplaşmalarla mübarizənin qəhrəmanıdır. O, İraq və Suriya xalqının bədnam İŞİD cərəyanına qarşı

dəstəklənməsində və adı çəkilən iki ölkənin süqutunun qarşısının alınmasında ən mühüm rolu ifa edib.

## General Qasim Süleymaninin eyni vaxtda iki ölkədə - İraq və Suriyada həlledici rolu

General Qasim Süleymani şəhadətindən əvvəl və həyatının son onilliyində regional məsələlərdə həlledici rol oynadı. O cümlədən:

- Reallaşacağı təqdirdə bütün Yaxın Şərq regionuna təsir edəcək olan İraq və Suriyanın qanuni hökumətlərinin süqutunun və bu iki ölkənin parçalanmasının qarşısını almaq

- İŞİD və beynəlxalq terrorçulara qarşı birbaşa sahə və operativ əməliyyat keçirib

- Terrorçuların hücumuna məruz qalan mühasirəyə alınmış insanlara dəstək vermək və yardım göstərib

İran İslam Respublikasını təmsil edən general Qasim Süleymani dünyada Suriya və İraq hökumətlərinin tələbi ilə təhlükəli sahələrin dərinliklərinə çatan ilk hərbi komandan olub.

O, özünün xüsusi hərbi dühası və bütün rəsmi və qeyri-rəsmi qüvvələri və könüllüləri səfərbər etməklə, bənzərsiz bir şücaətlə Amerika və sionizm tərəfindən dəstəklənən təkfirçi terrorçuların hərbi infrastrukturunu darmadağın etdi.

Nəhayət, İraqın Mosul şəhərinin azad edilməsi ilə o, İŞİD-in mənfur xilafətinin sona çatdığını elan etdi.

General Qasim Süleymani İraq və Suriyanın ərazi bütövlüyünü müdafiə etmək, İŞİD xilafətinin yaranmasının qarşısını almaq və bölgənin məzlum xalqlarına dəstək olmaq üçün meydana gələn müdafiəçilər arasında fəaliyyət birliyi və ittifaq yaratdı

Şübhəsiz ki, o, region xalqlarına və hökumətlərinə, hətta Avropa da daxil olmaqla regionun hökumət və xalqlarına ən böyük xidməti göstərmiş, İŞİD-in şeytani xilafətinin qurulmasının, onun təsir dairəsinin və əməliyyatlarının dünyanın digər regionlarında da genişlənməsinin qarşısını almışdır

İran İslam Respublikasının ali siyasi və dini lideri Ayətullah Xameneinin qısa, lakin dərin mənalı bir cümləsi ilə desək, general Qasim Süleymani “müqavimətin beynəlxalq siması” idi.

General Qasim Süleymani "müharibə adamı" olmasından daha çox bir "sülh adamı" olmuşdur. O, sadə bir şəxsiyyət deyil, Amerika və sionizmin region hökumətləri və xalqlarının taleyi üzərində hökmranlığının qarşısını almağın yeganə yolunun onları birləşdirmək olduğuna inanan bir düşüncə məktəbinin simvolu idi.

ABŞ hökumətinin nöqteyi-nəzərindən, Süleymaninin regionda olması ilə əsrin razılaşmasını irəli sürmək və kompromis prosesi ciddi maneələrlə üzləşib. Buna görə də ABŞ hökuməti təkcə beynəlxalq terrorizmlə mübarizənin ən

görkəmli qlobal simasını deyil, həm də sionist rejimin islam və ərəb ölkələrini işğalı ilə mübarizə aparmağı planlaşdıran bir şəxsi qətlə yetirdi.

Amerika hökumətinin Süleymaniyə sui-qəsd və onun şəhadəti bir insanı yox etmək üçün deyil, antiamerikan, anti-sionist düşüncənin sirrini və təzahürünü aradan qaldırmaq üçün bir hərəkət idi və təbii ki, belə bir cinayəti törətmək Amerika regionda və dünyada onlarla başqa strateji səhvləri ilə birlikdə daha bir strateji səhvi idi. Çünki general Süleymaninin şəhadəti ilə onun məktəbi və təfəkkürü davamlılığını və dinamizmini itirməyərək, daha qlobal ölçüdə artdı.

Zamanın keçməsi və Amerika Birləşmiş Ştatlarının bəzi rəsmilərinin etirafları göstərdi ki, bir çox terrorçu və təkfirçi qruplar, o cümlədən İŞİD regionun strateji tarazlığını dəyişmək, ona nəfəs məkanı yaratmaq, sionist rejimin İslam dünyası ilə qanlı müharibələrini dəstəkləmək və alovlandırmaq məqsədilə Amerika Birləşmiş Ştatları tərəfindən yaradılıb. Bu cür biabırçı hərəkətlərə görə təbii olaraq Amerika hökuməti və həmin ölkənin hakimiyyət orqanları beynəlxalq məsuliyyət daşıyır və onlar regionda bu hərəkətlər nəticəsində baş vermiş bütün fəlakətlərə və zərərlərə görə cavab verməlidir. Bölgədə İŞİD və terrorla mübarizə aparan general və komandirlərin cinayətkarlıqla qətlə yetirilməsi əslində o zaman ABŞ prezidenti olan cinayətkar Trampın bu generallardan terrorçuların qisasını alması idi.

İraq və Suriyanın çətin böhran dövründən keçməsinə və İŞİD-in xilafət xəyalının iflasa uğramasına baxmayaraq, təəssüf ki, təkfirçi, anti-insani, terrorist ideyalar və bu ideyalara açıq və gizli dəstək davam edir və beynəlxalq ictimaiyyətin bu məsələdə ayıq olması, belə ideyaların yayılmasına və bu şüurun yenidən bərqərar olmasına qarşı öz mövqeyini möhkəmləndirməsi zəruridir. Təkfirçi düşüncələr və terrorizm beynəlxalq sülh, sabitlik və təhlükəsizliyə

təhdiddir və bununla mübarizə aparmaq beynəlxalq ictimaiyyətin bütün üzvlərinin borcudur. Heç kimə sirr deyil ki, Amerikanın Qərbi Asiya regionunda təxribatçı varlığı mövcuddur və bu ölkə terrorçu hərbi qüvvələrini bu bölgədən çıxarmayana qədər sabitlik və təhlükəsizlik bərqərar olmayacaq.

General Süleymaninin və İslam müqaviməti komandirlərinin şəhadətindən üç il keçir. Şübhəsiz ki, bu cinayət cavabsız qalmadı. Bu qeyri-insani cinayəti törədənlər mühakimə olunmalı və ədalət məhkəməsində cavab verməlidirlər.Bütün dünyada geniş yayılmış xalq reaksiyaları, eləcə də bir çox tanınmış beynəlxalq siyasi və hüquqi şəxslərin ABŞ-ın general Süleymani və onun yoldaşlarının qətli ilə bağlı cinayət əməlini pisləməsi və mövqeyinin açıqlanması açıq şəkildə göstərdi ki, ABŞ hər şeydən əvvəl dünyanın oyanmış vicdanlarının məhkəməsində qınanır. Bununla belə, rəsmi nöqteyi-nəzərdən İran İslam Respublikası bütün siyasi, hüquqi və beynəlxalq imkanlarından istifadə edərək bu dəhşətli cinayətin səbəbkarlarını və icraçılarını təqib edəcək və böyük İran xalqının beynəlxalq cinayətlərdən qisas almaq hüququnu heç vaxt unutmayacaq.